Kredo.-2022.- 7 may.- S.16.

# Respublika Gənclər Kitabxanasında “Qarabağda qiyamət”in həqiqətləri

6 may 2022-ci ildə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Moskvada yaşayıb yaradan tanınmış yazıçı Ulduz Qasımın yeni nəşr olunmuş “Qarabağda qiyamət” və “Qaçaq Aslan” kitablarının təqdimatı oldu.

Ulduz Qasım tanınmış nasir, publisist kimi fəal yaradıcılıq yolu keçib. Onun ötən illərdə “Qürbət zöhrəsi”, “Xocalı şikəstəsi”, “Solmayan nərgiz” kimi romanları nəşr olunmuş və oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Onu da qeyd etmək yerinə düşər ki, Ulduz Qasımın “Xocalı şikəstəsi” və “Qürbət zöhrəsi” romanları ta-




nınmış türk yazıçısı İmdad Avşar tərəfindən tərcümə olunmuş və İstanbulda nəşr olunmuşdur. İmdad Avşarın verdiyi xəbərə görə “Xocalı şikəstəsi” romanının mövzu və bədii dəyəri Türkiyə Kültür Bakanlığı tərəfindən yüksək qiymətləndirilmiş və Türkiyə kitabxanaları üçün alınmışdır.

Ulduz Qasımın yaradıcılığında Qarabağ mövzusu xüsusi əhəmiyyət kəsb edir. Demək olar ki, bu mövzu yazıçının yaradıcılığı üçün aparıcı xətt yaradır. “Ağ göyərçinlər”, “Şuşa” kimi kitabları da maraqla qarşılanıb.

“Qarabağda qiyamət” romanının ən gözəl fəsillərində şəhid Fərid Ələkbərovun timsalında Şuşa fatehlərinin əfsanəvi igidliklərindən bəhs edilir.

“Solmayan nərgiz” romanı isə Qarabağın işğalı zamanı kütləvi faciələrin dəhşətlərinə



güzgü tutur. Bu əsər olum-ölüm arasındakı həyat həqiqətlərini bütün reallıqları ilə canlandırır. Müəllifin təbirincə desək, onun yaradıcılığının əsas mahiyyətində ulu yaradana və vətənə sevgi qoşa qanad kimi tərənnüm olunur. Müəllif ulu yaradan mahiyyətində təkzib olunmayan həqiqətləri nəzərdə tutur.

Tədbirdə Azərbaycanın tanınmış söz və sənət adamları iştirak edirdilər. Əməkdar jurnalist Tahir Aydınoğlu, jurnalist Əntiqə Qonaqova, şair-publisist Şövkət Zərin Horovlu, roman tədqiqatçısı və Qarabağ mövzusunda dəyərli romanlardan birinin müəllifi Fazil Güney, yazıçı-publisist Zemfira Məhərrəmli, jurnalist-tədqiqatçı Rəhilə Gülgün və digərləri ni çıxışlarında Ulduz Qasım yaradıcılığının ən müxtəlif tərəflərinə münasibət bildirildi.

Tədbirdə mən də çıxış etdim. Qeyd etdim ki, müharibə dövrünün qəhrəmanları - əsgərlərimiz tarixin əsil müəllifləridir. Amma sülh dövründə tarixin müəllifi yazarlardır. Ulduz Qasım bütün yaradıcılığını tarixi həqiqətləri yazıya gətirməyə sərf edib.

Qarabağda qiyamət düşmənə sonuncu ibrət kitabıdır. Şuşanın işğaldan azad olunması düşmən üçün əbədi dərs olacaq. Ulduz Qasım da məhz bu həqiqətlərdən danışır.

Ə.Xələfli

*06.05.2022*